Azərbaycan Respublikası
Nazirlər Kabinetinin 2024-cü il
“ 26 ” dekabr tarixli
542 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

**əlavə**

**Büdcədən maliyyələşdirilən müəssisə, idarə və təşkilatlarda tədris məşğələlərinin aparılmasına cəlb edilən işçilərin əməyinin saathesabı ödənilməsi məbləğləri**

(manatla)

| Təhsil alan kontingent | Pedaqoji işçilər | | |
|---|---|---|---|
| | professor və ya elmlər doktoru | dosent və ya fəlsəfə doktoru | elmi dərəcəsi, elmi adı olmayan şəxslər |
| Bütün tipdən olan ümumtəhsil və peşə məktəblərinin, gimnaziya, lisey və digər təlim-tərbiyə ocaqlarının, orta ixtisas məktəblərinin, bunlara bərabər tutulan digər təhsil müəssisələrinin uşaqları, şagirdləri, tələbələri, orta ixtisas təhsilli mütəxəssislərin ixtisasartırma kurslarının dinləyiciləri, fəhlələr | 16,50 | 11,00 | 8,60 |
| Xüsusi təyinatlı (hərbi, dövlət təhlükəsizliyi və s.) təhsil müəssisələrinin tələbələri, kursantları və dinləyiciləri | 19,60 | 14,30 | 9,60 |
| Doktorantlar, ali təhsilli rəhbər işçilərin və mütəxəssislərin ixtisasartırma kurslarının dinləyiciləri | 23,60 | 16,60 | 11,00 |

**Qeyd.**

1. Əməyin saathesabı ödənilməsi məbləğlərinə məzuniyyət haqqı daxildir.
2. Müsabiqə və baxışların münsiflər heyəti üzvlərinin və müsabiqəyə təqdim edilən işlərin resenzentlərinin əməyinin saathesabı ödənilməsi məbləğləri professor və ya elmlər doktoru üçün 19,60 manat, dosent və ya fəlsəfə doktoru üçün 14,30 manat, elmi dərəcəsi, elmi adı olmayan şəxslər üçün 9,60 manat məbləğində müəyyənləşdirilir.
3. Tədris məşğələlərinin aparılmasında iştirak edən plastik poza nümayişçilərinin (naturaçıların) əməyinin saathesabı ödənilməsi bir akademik saata görə geyimli naturada 12,50 manat, geyimsiz naturada isə 20,70 manat məbləğində müəyyən olunur.
4. Əməyin saathesabı ödənilməsi məbləğləri mülki hüquqi müqavilə əsasında işləyən şəxslərə şamil edilir.